# TƏSVİRİ SƏNƏTDƏ "YARADICILIQ PSİXOLOGİYASI" TERMİNİ

**Ağayev Emil Raul oğlu**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kolleci**
emilaghayev93@mail.ru

İncəsənətin hər bir növü özündə psixoloji estetik dəyərləri birləşdirir. Təsviri sənətin hər bir növündə yaradıcılıq psixologiyasının mərkəzində dayanan fərdin keçirdiyi hisslər ifadə olunur. Terminin izahına məqalədə müxtəlif mövzu və janrlarda təhlilinə geniş yer ayrılmışdır.

**Açar sözlər:** Təsviri sənət, yaradıcılıq, psixologiya,qrafika, rəngkarlıq, heykəltaraşlıq

İncəsənət hər bir zaman özündə müəyyən bir psixoloji məqamları birləşdirib. Bu iki sahənin qarşılıqlı əlaqəsi heçdə təsadüfi sayılmalı deyil, çünki mərkəzində insan obrazı durur. Təsviri sənətdə istifadə edilən "yaradıcılıq psixologiyası" termini bu sahənin hər üç növündə fərdi xüsusiyyətləri ilə seçilir. Qrafikanın təsvir dili ilə seçilən ağ-qara rənglər, ştrixlər rəssamın yaradıcılığındakı psixoloji emosiyaları birləşdirir. Rəngkarlıqda müxtəlif rəng təzadları, heykəltaraşlıqda həcmin vurğulanması rəssamın mövzuya və obraza müxtəlif materiallar, texnikalarla daxili hiss yanaşmalarını ifadə edir. Əlbəttə fərdi yaradıcı şəxsə təsir edən amillər, onun psixoloji ruhu, yaradıcılıq zamanı işləyərkən ona təsir edən amillər, dövr və zamanda baş verən hadisələri də vurğulamalıq. Təsviri sənətin əsas ifadə vasitələrindən hesab edilən xətt anlayışı fərdin xarakterini göstərir. Rəng, işıq-kölgə anlayışı da müxtəlif mövzu, janrlarda psixoloji estetik ruhu birləşdirir.

**Mövzunun işlənmə dərəcəsi.** Təsviri sənətə yaradıcılıq psixologiyası kontekstində baxsaq, portret janrında rəssamın obraza qarşı münasibətini hiss edə bilərik. Şəxsiyyətin daxili dünyası, geyimi və digər məqamlar kompozisiyada ardıcıl formada təhlil edilir.

Zaman və tarixdə yaradıcı insanı əhatə edərək təsir edir. Vətənpərvər ruhlu əsərlərdə psixoloji ideya daha da gərginləşərək sənətkarı həyəcanlandırır. İkinci Qarabağ müharibəsindəki qələbəmiz artıq incəsənətimizdə yeni müsbət, qələbə ruhlu əsərlərə imkan verir. Azərbaycan istedadlı rəssamları bu müddətdə öz vətəndaş mövqelərini ortaya qoydular, Vüqar Əlinin plakat janrında işlədiyi əsərlərdə azadlı ifadəsi, düşmənə nifrət yaradıcı insanda haha da qabardılmışdır. Onun müəllifi olduğu "Şuşa" (ill 1) kompozisiyasında müxtəlif ifadələr, yazılar təsvirdə psixologiyasında, düşüncəsindən keçirdiyi müxtəlif fikirlər canlandırılır.




**İLL 1. Vüqar Əli "Şuşa" (2020)**

Hər bir xalqın özünəməxsus bayram ənənələri vardır. Bu mövzuda təsviri sənətdə aktual olaraq işlənir. Milli ənənələrimizlə seçilən Novruz bayramımız rəssamlarımız tərəfindən kompozisiyalarında canlandırılır.Qeyd etmək lazımdır ki, bu bayramın hər bir simvolu yaradıcı insanın psixoloji məhsuludur. Xalq rəssamı Arif Hüseynov yaradıcılığında xüsusilə "Novruz" silsiləsi (ill 2) mühüm yer tutur. Bu əsərlərin hər birinə diqqət yetirsək, dörd çərşənbənin təsviri, adətlərimiz,rənglər vasitəsilə canlandırılır.

Təsviri sənət tarixinə nəzər yetirsək, hər bir üslub, cərəyan yaradıcı dövrün məhsuludur. Lirik və sərt üslubda rəssamın fırçasının hərəkətliliyi, miniatür üslubunda müxtəlif məktəblərin baxışları daima diqqət doğurur. Məşhur "Xosrovun Şirini çimərkən görməsi" səhnəsi Sultan Məhəmmədin yaradıcılığında xüsusi maraq doğurur, atın dinamikliyi, Şirinə xəbərdarlıq edilməsi, yaradıcı insanın əsərdəki qısa bir səhnəsi tamaşaçıda maraq doğurur.

Müasir dövr incəsənətdə yaradıcı fikirlər sadələşərək qarmaqarışıqdır. Abstrakt və avanqard istiqamətlər şüuraltı olaraq düşündürür, biz kompozisiyada real heçnə görmürük. Kanseptual, kollaj, instalyasiya kimi sənətə mənfiliklər gətirən bu hallar artıq bir fərdin yaradıcılıq psixologiyasının zəifləməsini göstərir.

Tarixin hər bir dövründə incəsənətin mərkəzində dayanan yaradıcı insanın psixologiyası onu həyəcanlandıraraq yeni əsərlərin yaranmasına gətirib çıxarmışdır.



**İLL 2. Arif Hüseynov "Novruz" silsiləsi (kətan, yağı boya, 72x92 sm)**



**İLL 3. Sultan Məhəmməd " Xosrov Şirini çimərkən görür"**

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI:

1. Ağayev E. "Azərbaycanlı rəssamların Şuşa sevgisi, "4th international Nowruz conference on scientific research" 18-21 mart 2021, Azərbaycan, Qarabağ, s 44-50
2. Əliyev Z. "Arif Hüseynov.Cizgilərin hikməti",Bakı Şərq-qərb 2014, 341 s
3. Həsənzadə C. "Təbrizin sehrli nağılları", Bakı 2014, 175 s
4. İbrahimov T. "Təsviri incəsənətin nəzəriyyəsi", Bakı Ecoprint 2017, 104 s
5. Kərimova S. "İncəsənət əsərlərinin təhlili" , Bakı 2018, 283 s

**РЕЗЮМЕ**

**Термин «ТВОРЧЕСКАЯ ПСИХОЛОГИЯ» в искусстве**
**Агаев Эмиль Рауль оглу**

Каждый вид искусства сочетает в себе психологические и эстетические ценности. В каждом виде изобразительного искусства выражены чувства личности, что составляет основу творческой психологии. Объяснение термина широко освещается в статье при анализе различных тематик и жанров.

**Ключевые слова:** изобразительное искусство, творчество, психология, графика, живопись, скульптура.

**SUMMARY**

**The term "CREATIVE PSYCHOLOGY" in fine art**
**Agayev Emil Raul oglu**

Each type of art combines psychological and aesthetic values. In each type of fine art, the feelings of the individual, which is at the center of creative psychology, are expressed. The explanation of the term is given in the article for analysis on various topics and genres.

**Keywords:** Fine arts, creativity, psychology, graphics, painting, sculpture